# Bizim Məryəm

## Mədəniyyət xadimləri yubilyar haqqında

Bir alim kimi Məryəm Əlizadə illərcə Azərbaycan milli teatr prosesinin dialektikasını araşdırmaqla məşğul olaraq öz araşdırma metodunu, necə deyərlər, «dəmir məntiqlə» əsaslandırıb.

Bu təbiidir, çünki elmi təhlil poetik, şairanə, jurnalistika, esseçilikdən birmənalı şəkildə imtina edir.

Bunu Məryəm Əlizadənin «Teatr: seyr və sehr» elmi monoqrafiyasında aydın görmək mümkündür.

Di gəl ki, Məryəm xanımın hələ ki, sonuncu olan «Dördüncü ölçünün rəngləri» kitabının ideya strukturu başdan-ayağa paradokslar üzərində qurulub.

Böyük rejissor Tofiq Kazımova həsr olunmuş monoqrafiya Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr olunduğundan mən bu kitabın əlyazmasını dəfələrlə oxuya-oxuya Məryəm xanımın ilk baxışdan təzadlı görünən elmi-yaradıcı metodunun özəlliyi haqqında düşündüm və mənə elə gəlir ki, «açar»ını tapdım.

Mənə aydın oldu ki, yalnız teatr prosesini deyil, bütövlükdə mədəniyyət prosesini, onun uğur və böhranlarını, hadisələrini və personaliyalarını dialektik vəhdətdə təhlil edəndə paradoksların imkanlarından faydalanmaq qaçılmazdır.

**Ədalət Vəliyev,**
***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin müavini***

**Məryəm Əlizadə haqqında söz deyəndə mən həmişə yüngül tərəddüdə bənzər anlar yaşayıram. Bu halın səbəbi əsla ona olan münasibətimin göstəriciləri deyil.**

**Problem münasibətimi açıqlayan mətləblərin sıralamasındadır. Belə ki, hər dəfə söz deyəndə hansı səciyyədən başlamaq məsələsi önə çıxır: illər boyu çiyin-çiyinə çalışdığım dost Məryəmdən başlayımmı, Mədəniyyət və İncəsənət Universitetinin professor-müəllim heyətinin sayılan pedaqoqu, müəllim Məryəm xanımdanmı sözə başlayım, yoxsa elmi düşüncəsinə hörmət bəslədiyim teatrşünas-alim Məryəm Əlizadənin fəaliyyətini dəyərləndirim?!.**

**Təbii ki, dediyim kimi, sözügedən tərəddüd ani olur, bir göz qırpımında sovrulub gedir, çünki Məryəm xanım haqqında sözü istənilən məqamdan başlamaq olur və heç bir çətinlik çəkmədən saatlarla onun haqqında danışmaq olar.**

**Timuçin Əfəndiyev,**
***ADMİU-nun rektoru, Əməkdar incəsənət xadimi***

Məryəm xanımın tədqiqatları da onun şəxsiyyəti kimi təmkinli, tutumlu, mənalıdır. O, boğazdan yuxarı danışa bilmədiyi kimi, peşəkar təbiətinə toxunmayan mövzularda yaza da bilmir.

Məryəm xanım əsl dostdur, munisdir. Qayğıkeşlik onun özündən qabaqda gedən başlıca xüsusiyyətidir.

**İsrafil İsrafilov,**
***sənətşünaslıq doktoru, professor***

İncəsənət sahəsində çox az sənətkar tapılar ki, onun xasiyyətilə sənəti uyğun gəlsin. Mən Məryəmi sənət zərgəri adlandırardım. O, sənətdəki zərləri görür, tapır, cilalayır. Ona görə də mən onu zərgər kimi dəyərləndirirəm. Lava kimi püskürən, sənətin bu keşməkeşində özünü sındırmayan, həyatın dolanbacında azmayan Məryəm o qədər kövrək, o qədər diqqətcil, o qədər həssas bir insandır ki, elə adına layiqdir, Məryəmdir ki, Məryəm.

**Afaq Bəşirqızı,**
***Xalq artisti, professor***

**Məryəm xanımın adı bu gün Azərbaycan sənətşünaslığında xüsusi bir nüfuza malikdir. Bu, təkcə mənim fikrim yox, teatr sənəti ilə ciddi məşğul olan hər bir insanın fikridir. Mən hətta deyərdim ki, Məryəm xanımın adı və imzası Azərbaycan sənətşünaslığında bir brenddir. Ona da Məryəm xanım işinə olan hədsiz tələbkar və ciddi münasibəti ilə nail olub. Məryəm xanımın imzası olan hər bir məqalə haqqında demək olar ki, o heç vaxt qərəzli olmayacaq. Çünki Məryəm xanım öz imzasına hörmətlə yanaşan bir alimdir. Mən belə bir insanla tələbə yoldaşı və dost olduğum üçün qürur hissi duyuram.**

**Fuad Poladov,**
***Xalq artisti***

*Çağdaş teatr prosesini diqqət və maraqla izləməkdə həmişə Məryəm Əlizadəyə qibtə eləmişəm. Teatrşünas-alim hətta teatr olan rayonlara gedib oradakı sənət ocaqlarının tamaşalarına baxmağa da macal tapır. Baxdıqları barədə mətbuatda gözəl təhlilli məqalələr, elmi resenziyalar yazır. Həmin yazılarda alimin səmimiyyəti və alicənablığı məni valeh edir. Təriflərini ürək dolusu sevinclə, tənqidi fikirlərini son dərəcə ehtiram və ehtiyatla söyləyə bilir. Bu səmimiyyət, bu müdriklik Məryəm Əlizadənin yaradıcılığının qranit sütunudur.*

**İlham Rəhimli,**
***sənətşünaslıq doktoru, professor***

*Zəngin teatr bilgisinə malik Məryəm xanım həm də gözəl insan, səmimi dostdur. Teatr sənətini dərindən bilən, incə estetik zövqə və yüksək peşəkarlıq qabiliyyətinə malik Məryəm xanım uzun illərdir milli teatr prosesini addımbaaddım izləyir və fiksasiya edir. Apardığım müşahidələr mənə onu deməyə əsas verir ki, Məryəm Əlizadə teatrın bütün komponentləri kimi səhnəqrafiya sənətinin, teatr rəssamlığının da bilicisidir. Məryəm xanımın bütün elmi əsərləri, məqalələri, çıxışları vahid paradiqmaya əsaslanır.*

Nazim Bəykişiyev,
*Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor*

Məryəm Əlizadə sevgi ilə möhürlənib - bunu hələ tələbəlik illərindən özüm üçün müəyyənləşdirmişdim. Əvvəl-əvvəl təəccüblənirdim və nə gizlədim, inanmırdım: kurs yoldaşlarını... müəllimləri... dərsləri... məşğələləri... bu qədər də sevmək olmaz axı! Sən demə, olar və sən demə, bu sevgini o qədər də gülçiçəkli olmayan həyat yolu boyu qoruyub bəsləmək də olarmış. "Xanımların yaşlarını dilə gətirməzlər" - bu deyimlə razı olmasam da, ona riayət edəcəyəm. Halbuki, demək istədiyim qənaət məhz yaşla bağlıdır.

Demək istəyirəm ki, ağbirçək sinninə çatmış Məryəm xanım yenə də sevgi ilə yaşamaqdadır: indi o, tələbələrini... aspirantlarını... həmkarlarını sevir, indi də o, sevə-sevə auditoriyaya girir və sənətinə olan sevgidən pay paylayır. Pafoslu səslənsə də, deməliyəm ki, o, doğma Azərbaycan mədəniyyətini və incəsənətini artıq müdrikliklə aşılanmış sevgi ilə sevir, milli teatrı isə ərköyün bir övlad kimi sevərək, onun inkişafından ötrü iş görməkdən usanmır.

Və buna görə də Məryəm xanım onu yaxından və uzaqdan tanıyan hər kəsdən ötrü gözəldir! Böyük yazar və düşünər zamanında demişdir ki, bəs, narahat olmayın, dünyanı gözəllik xilas edəcək. Dünyanı bilmirəm, amma Məryəm xanımın gözəlliyi illərdir teatr icmamızı qoruyur, onu tənəzzüldən xilas edir.

Vaqif İbrahimoğlu,
*YUĞ Teatrının baş rejissoru, əməkdar incəsənət xadimi, professor*